# “Sapar” layihəsi

| | |
|---|---|
| **Ölkə:** | Qazaxıstan |
| **Layihə nömrəsi:** | 56993 |
| **Biznes sektoru:** | Nəqliyyat |
| **Bildiriş növü:** | ÖZƏL |
| **Ətraf mühit kateqoriyası:** | B |
| **Təsdiq tarixi:** | 9 sentyabr 2026-cı il |
| **Status:** | Daxili (struktur) baxışdan keçib, yekun baxış gözlənilir |

## Lahiyənin təsviri

Bank Mərkəzi Asiya, Qafqaz və Latın Amerikası ölkələrində fəaliyyət göstərən, baş ofisi Qazaxıstan Respublikasında yerləşən “**Jet Group Ltd.”** mikromobillik operatoruna (bundan sonra “**Şirkət**”) səhmlərə konvertasiya edilə bilən kredit (“**Kredit**”) təqdim edəcək. Maliyyələşdirmə vəsaiti (i) Şirkətin Mərkəzi Asiya və Qafqaz regionlarında elektriklə işləyən ikitəkərli nəqliyyat vasitələri parkının genişləndirilməsi və (ii) **“Jet Group Ltd.”** şirkətinin mülkiyyət hüququ ilə qorunan proqram təminatının işlənib hazırlanmasının birgə maliyyələşdirilməsi üçün istifadə olunacaq.

## Layihənin məqsədləri

Layihə AYİB-in fəaliyyət göstərdiyi ölkələrdə Şirkətin genişlənməsini dəstəkləyir. Bu isə həm aşağı emissiyalı, həm də şəhər nəqliyyatında marşrutun ilk və son hissəsini əhatə edən mobillik həllərinin daha əlçatan olmasına imkan yaratmaqla yanaşı, əhalinin sıx məskunlaşdığı şəhər ərazilərində nəqliyyat sıxlığının azalmasına və hava keyfiyyətinin yaxşılaşmasına töhfə verəcək. Həmçinin, bu Layihənin həyata keçirilməsi Şirkətin əməliyyat səmərəliliyini, xidmət keyfiyyətini və normativ tələblərə uyğunluğunu da artıracaqdır.

## Keçidin təsiri

EKT: 65

- **Yaxşı idarəolunan (əsas):** Korporativ idarəetmə və normativ tələblərə uyğunluq sahəsində təkmilləşdirmələri dəstəkləyərək beynəlxalq standartlara uyğunluğun gücləndirilməsinə töhfə verir.
- **Rəqabətədavamlı (ikinci dərəcəli):** Nəqliyyat vasitələri parkının genişləndirilməsi və Şirkətin mülkiyyət hüququ ilə qorunan proqram təminatının hazırlanması sayəsində rəqabət qabiliyyətini artırır, əməliyyat səmərəliliyini yaxşılaşdırır və fəaliyyətin daha da genişləndirilə bilməsini təmin edir.

## Müştəriyə dair məlumatlar

**“JET GROUP LTD”**

Şirkət 2021-ci ildə təsis edilmiş və Qazaxıstanın Astana Beynəlxalq Maliyyə Mərkəzində (ABMM) qeydiyyatdan keçmiş holdinqdir. Şirkətin əsas fəaliyyət istiqaməti mikromobillik vasitələrinin (elektrik skuterləri və elektrik velosipedləri) qısamüddətli icarəsidir. Şirkət 75 000-dən çox mikromobillik vasitəsini istismar edir və Mərkəzi Asiya, Qafqaz və Latın Amerikasının 10 ölkə və 90-dan çox şəhərində fəaliyyət göstərən şirkətləri özündə birləşdirir.

## AYİB maliyyələşdirmə xülasəsi

10 000 000,00 ABŞ  dolları

7 ilədək 10 milyon ABŞ dolları məbləğində konvertasiya olunan birinci dərəcəli kredit. Kreditdə səhmlərə konvertasiya seçimi nəzərdə tutulur.

## Layihənin ümumi dəyəri

10 000 000,00 ABŞ  dolları

Layihənin ümumi dəyəri 10 milyon ABŞ dollarıdır və tam həcmdə AYİB tərəfindən maliyyələşdirilir.

## Əlavəlilik

**Maliyyələşdirmə strukturu:** AYİB-in maliyyələşdirməsi maliyyə çatışmazlığını aradan qaldırmağa kömək edir və AYİB-in fəaliyyət göstərdiyi ölkələrdə Şirkətin öz fəaliyyətini genişləndirməsinə və genişlənmə strategiyasını həyata keçirməsinə imkan yaradır.

**Standartların müəyyən edilməsi - Korporativ idarəetmə:** Korporativ İdarəetmə üzrə Fəaliyyət Planını (KİFP/CGAP) həyata keçirməklə yanaşı, AYİB-in dəstəyi qrup üzrə korporativ idarəetmə strukturlarının yaradılması, qərarların qəbul edilməsi və hesabatvermə (tabelik) iyerarxiyalarının daha aydın müəyyən edilməsi, eləcə də Direktorlar Şurası tərkibinin və nəzarət funksiyalarının təkmilləşdirilməsini, habelə əsas siyasətlərin və daxili nəzarət funksiyalarının (o cümlədən risklərin idarə edilməsi, normativ tələblərə uyğunluq və şəffaflıq təcrübələrinin) tətbiqini əhatə edərək

beynəlxalq standartlara uyğunluğu, habelə korporativ idarəetməni və normativ tələblərə uyğunluğu gücləndirir.

**Bilik, innovasiyalar və potensialın inkişafı:** AYİB Şirkətin əməliyyat potensialını və daxili sistemlərini gücləndirmək üçün əlavə dəyər yaradan dəstək göstərir. Buraya cari əməliyyatların qiymətləndirilməsi, rəqəmsal imkanların inkişaf etdirilməsi və səmərəliliyin, eləcə də fəaliyyət miqyasının genişləndirilməsi üzrə imkanların, habelə platformanın ümumi fəaliyyət göstəricilərinin müxtəlif bazarlar üzrə yaxşılaşdırılmasına yönəldilmiş strateji yol xəritəsinin hazırlanmasına fokuslanan rəqəmsal transformasiya dəstəyi daxildir.

## Ətraf mühit və sosial məsələlərin xülasəsi

Layihə 2024-cü il Ətraf Mühit və Sosial Siyasətinə (ƏMSS/ESP) uyğun olaraq B kateqoriyasına aid edilmişdir. Müştərək mikromobillik xidmətlərinin (elektrik skuterlərinin) istisması ilə əlaqədar olan ətraf mühit və sosial (ƏMS) sahə üzrə risklər / təsirlər miqyas etibarilə məhduddur, reversiv xarakter daşıyır və müvafiq idarəetmə tədbirləri vasitəsilə asanlıqla azaldıla bilər. Layihənin həyata keçirilməsi nəticəsində ətraf mühitə və ya sosial sahəyə ciddi mənfi təsirlərin baş verməsi gözlənilmir və layihə irimiqyaslı inkişaf tədbirlərini nəzərdə tutmur. Müstəqil məsləhətçilərin dəstəyi və AYİB-in Ətraf Mühit və Sosial Məsələlər Departamenti tərəfindən aparılmış daxili baxış əsasında Ətraf Mühit və Sosial Araşdırma (ƏMSA/ESDD) həyata keçirilmişdir. Araşdırmanın əhatə dairəsinə Şirkətin müxtəlif ölkə və şəhərlərdə həyata keçirdiyi əsas mikromobillik fəaliyyəti, o cümlədən nəqliyyat vasitələri parkının istisması, texniki xidmət obyektləri, akkumulyatorların doldurulması və saxlanması, loqistika və say balansını qorumaq üçün nəqliyyat vasitələrinin bir yerdən digər yerə aparılaraq yerləşdirilməsi, rəqəmsal platformalar, habelə anbarlar və servis mərkəzləri kimi müvafiq əlaqəli obyektlər, eləcə də skuterlərin və akkumulyatorların satın alınması da daxil olmaqla, təchizat zəncirinin seçilmiş aspektləri daxil edilmişdir. Elektrik skuterlərinin təkrar doldurulan akkumulyatorları üzrə Təchizat Zəncirinin Araşdırılması (TZA/SCDD) Bankın siyasətinə uyğun olaraq və cari ilin əvvəlində Akkumulyatorlar üzrə İdarəetmə Yanaşması sənədi vasitəsilə Direktorlar Şurasına təqdim olunan yeniliklər nəzərə alınmaqla həyata keçirilmişdir. TZA /SCDD çərçivəsində əsas diqqət Şirkətin satınalma sistemləri və elektrik skuterlərinin istehsalçısına yönəldilmişdir. Xarici ƏMSA/ESDD məsləhətçisi təsdiq etmişdir ki, Şirkətin Təchizatçı bəyannaməsində insan hüquqları, ayrı-seçkiliyə yol verilməməsi, bərabər əməyə görə bərabər əməkhaqqı, Əməyin Mühafizəsi və Təhlükəsizlik (ƏMT/OHS), ətraf mühit üzrə tələblərə uyğunluq və təchizat zəncirinin araşdırılması ilə bağlı öhdəliklər əks olunmuşdur. Təchizatçılar üzərində operativ nəzarəti daha da gücləndirmək üçün Şirkət layihənin həyata keçirilməsi çərçivəsində Təchizat zəncirinin idarə edilməsi sistemini inteqrasiya edəcək.

ƏMSA/ESDD-yə əlavə olaraq, kibertəhlükəsizlik, eləcə də ətraf mühit və sosial (ƏMS) sahə üzrə risklər ilə bağlı məlumatların idarə edilməsi aspektlərinə xüsusi diqqət yetirilməklə, paralel şəkildə İnformasiya Texnologiyaları üzrə Araşdırma (IT Due Diligence) həyata keçirilmişdir. Şirkət yazılı əmək müqavilələri, əməkhaqqının vaxtında ödənilməsi, işçilərin şikayətlərinin baxılması mexanizmi və işçilər üçün tibbi sığorta da daxil olmaqla, korporativ məşğulluq tələblərinə uyğun əsas insan resursları siyasətlərini və təcrübələrini formalaşdırmışdır. Bununla belə, Ətraf Mühit və Sosial Fəaliyyət Planı (ESAP/ƏMSFP) Şirkətdən ilkin adaptasiya prosesinin rəsmiləşdirilməsi, sənədlərə nəzarət, iş vaxtı və artıq iş saatlarının uçotu, işçilərlə strukturlaşdırılmış məsləhətləşmə, siyasətlərin nəzərdən keçirilməsi, habelə gender əsaslı zorakılıq və təqiblə bağlı maarifləndirmə sahələrində mövcud boşluqların aradan qaldırılmasını tələb edəcək.

ƏMSA (ESDD) müvafiq bazar, normativ və əməliyyat təhlillərini, o cümlədən yol hərəkəti və yol təhlükəsizliyi üzrə qiymətləndirmələri ehtiva etmişdir. Maraqlı tərəflərin irəli sürdüyü hər hansı əhəmiyyətli şikayət və ya etiraz müəyyən edilməyib. Şirkətin fəaliyyəti müddətində maraqlı tərəflərlə

davamlı qarşılıqlı əlaqə və məlumatların açıqlanması təmin ediləcək, ortaya çıxan məsələlər isə mövcud şikayətlərin baxılması mexanizmləri vasitəsilə həll olunacaqdır. Layihə müxtəlif ölkələrin şəhər mühitində həyata keçirilir və burada ətraf mühit və sosial (ƏMS) şəraitin ilkin vəziyyəti, habelə təhlükəsizlik və şəhər məkanından istifadəyə ictimai həssaslıq ölkədən ölkəyə fərqlənir. Şirkətin fəaliyyətinin sürətlə genişlənməsi təşkilati potensialın daha da gücləndirilməsini tələb edir. Eyni zamanda, mövcud fəaliyyət sahələri təhlükəsizlik siyasətləri və prosedurları da daxil olmaqla, sahə standartlarına uyğun ümumilikdə qabaqcıl təcrübələrin tətbiq olunduğunu nümayiş etdirir.

ƏMSA/ESDD layihə üzrə əsas ƏMS risklərini təsdiqləmiş və elektrik skuterlərindən istifadə edən şəxslərə və üçüncü tərəflərə təsir göstərə biləcək ictimai sağlamlıq və təhlükəsizlik risklərini, yerli infrastruktur və davranış amillərindən irəli gələn yol hərəkəti və yol təhlükəsizliyi risklərini, əməliyyat heyəti üçün peşə risklərini, sistemlərin parçalanması ilə əlaqəli əməliyyat və idarəetmə risklərini, rəqəmsal platformalardan asılılıqla bağlı məlumatların mühafizəsi və kibertəhlükəsizlik risklərini, xüsusən də akkumulyatorlar və avadanlıqlarla bağlı təchizat zənciri risklərini, habelə elektrik skuterlərinin təhlükəsizliyi ilə bağlı ictimai qavrayışdan irəli gələn nüfuz riskləri də daxil olmaqla, potensial təsirləri qiymətləndirmişdir.

Texniki xidmət mərkəzləri, anbarlar və enerjidoldurma infrastrukturu da daxil olmaqla, əlaqəli obyektlərlə bağlı risklər, xüsusilə yanğın təhlükəsizliyi və tullantıların idarə olunması baxımından, müvafiq nəzarət tədbirləri tətbiq edildiyi halda idarəolunan hesab edilir.

Layihə AYİB-in Ətraf Mühit və Sosial Siyasətinin tələblərinə və qabaqcıl beynəlxalq təcrübəyə, o cümlədən Aİ-nin qüvvədə olan ətraf mühit standartlarına uyğun şəkildə strukturlaşdırılacaq, Ətraf Mühit və Sosial Fəaliyyət Planının (ƏMSFP/ESAP) həyata keçirilməsi isə bu tələblərə uyğunluğun təmin edilməsinə şərait yaradacaqdır.

ƏMSFP/ESAP risklərin azaldılması və tələblərə uyğunluğun təmin edilməsi məqsədilə görüləcək tədbirləri müəyyən edir. Bu tədbirlərə inteqrasiya olunmuş ƏMS idarəetmə sisteminin yaradılması, yol hərəkəti və yol təhlükəsizliyinin idarə edilməsinin gücləndirilməsi, Əməyin Mühafizəsi və Təhlükəsizlik (ƏMT/OHS) üzrə strukturlaşdırılmış prosedurların hazırlanması, ətraf mühit və sosial məsələlər üzrə monitorinqin və hesabatlılığın təkmilləşdirilməsi, məlumatların mühafizəsi və kibertəhlükəsizlik üzrə idarəetmənin inteqrasiyası, təchizat zəncirinin və podratçıların idarə edilməsinin rəsmiləşdirilməsi, habelə maraqlı tərəflərlə qarşılıqlı əlaqənin, şəhər mobilliyinin təhlükəsizliyinə dair maarifləndirmə kampaniyalarının, üçüncü tərəflər üçün şikayət mexanizmlərinin və genderlə bağlı təşəbbüslərin gücləndirilməsi daxildir.

Bu tədbirlərin həyata keçirilməsi AYİB-in tələblərinə və qabaqcıl beynəlxalq təcrübəyə uyğunluğu təmin edəcək. Bank Layihənin icrasına ətraf mühit və sosial məsələlər üzrə illik hesabatlar, ƏMSFP/ESAP icrasının dövri nəzərdən keçirilməsi və sifarişçi ilə davamlı qarşılıqlı əlaqə vasitəsilə nəzarət edəcək. ƏMSFP/ESAP-ın həyata keçirilməsində sifarişçiyə dəstək göstərmək üçün müstəqil ƏMS məsləhətçisi cəlb olunacaq.

## Yaşıl qiymətləndirmə

### Paris Sazişinə uyğunluq

Bankın birbaşa maliyyələşdirmə üzrə Paris Sazişinə uyğunluq yanaşmasının tətbiqi əsasında Layihənin Paris Sazişinin həm təsirazaltma, həm də uyğunlaşma məqsədlərinə uyğun olduğu müəyyən edilmişdir.

Elektrikli sərnişin nəqliyyatı kateqoriyası üzrə çoxtərəfli inkişaf banklarının (MDB) Paris Sazişinə uyğun hesab edilən birgə siyahısına daxil edildiyinə görə və elektrik skuterləri ilə elektrik velosipedlərinin sıfır emissiyalı fərdi mobillik vasitələri kimi qiymətləndirildiyi fərdi mobillik vasitələrinin istismarı və velosiped logistikası üzrə Aİ taksonomiyasının əhəmiyyətli töhfə meyarlarına uyğun olduğu üçün Layihə Paris Sazişinin təsirazaltma məqsədləri ilə uzlaşır.
Ciddi fiziki iqlim riskləri mövcud olmadığından və iqlim dəyişmələrinə adaptasiya üzrə milli siyasətlərə, eləcə də daha geniş sistemin iqlim davamlılığına zidd olmadığından, Layihə Paris Sazişinin iqlim dəyişmələrinə adaptasiya məqsədlərinə uyğundur.

**Yaşıl maliyyə atributu**

İqlim dəyişmələri ilə bağlı təsirlərin azaldılması və digər ekoloji məqsədlər naminə həyata keçirilən fəaliyyətləri dəstəklədiyi üçün AYİB tərəfindən təqdim edilən maliyyələşdirmənin 100 faizi yaşıl maliyyələşdirmə kimi təsnif edilir. Bu təsnifat AYİB investisiyalarının yaşıl maliyyələşdirmə üzrə təsnifatının müəyyən edilməsi metodologiyasına uyğun olaraq aparılmışdır.

## Texniki əməkdaşlıq və qrant maliyyələşməsi

İmzalanma mərhələsindən əvvəl:

**TƏ 1:** Şirkətin rəqəmsal davamlılığını, kibertəhlükəsizliyini və əməliyyat səmərəliliyini artırmaq, habelə mülkiyyət hüququ ilə qorunan proqram təminatının hazırlanması üçün Rəqəmsal Yol Xəritəsini işləyib hazırlamaq məqsədi ilə **Texniki Əsaslandırmanın və İnformasiya Texnologiyaları üzrə Araşdırmanın (IT Due Diligence) aparılması**. Dəyəri 75 000 avro təşkil edən bu tapşırıq Rəqəmsal Transformasiyaya Dəstək Proqramı çərçivəsində maliyyələşdirilmişdir.

İmzalanma mərhələsindən sonra:

**TƏ 2:** Şirkətdə korporativ idarəetmə metodlarının gücləndirilməsinə və həm beynəlxalq standartlara, həm də qabaqcıl təcrübəyə uyğunluğunun təmin edilməsinə dəstək üçün **Korporativ İdarəetmə üzrə Fəaliyyət Planının (KİFP/CGAP) həyata keçirilməsi**. Tapşırığın dəyəri 170 000 avroyadək qiymətləndirilir. AYİB-in maliyyələşdirmə mənbələri sonradan müəyyən ediləcək, maliyyələşdirmə isə Şirkətlə birgə həyata keçiriləcəkdir.

**TƏ 3: Ətraf Mühit və Sosial Fəaliyyət Planının (ƏMSFP/ESAP)** və Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planının (Stakeholder Engagement Plan) həyata keçirilməsində, ətraf mühit və sosial (ƏMS) təcrübələrin gücləndirilməsində, habelə AYİB standartlarına və qabaqcıl beynəlxalq təcrübəyə uyğunluğun təmin edilməsində Şirkətə dəstək göstərilməsi. Tapşırığın dəyəri 150 000 avroyadək qiymətləndirilir. Maliyyələşdirmə mənbələri sonradan müəyyən ediləcək**.**

## Şirkətin əlaqə məlumatları

Musalav Alibekov
musalav@jetshr.com
+7 778 906 1430
https://jetshr.com/#/en

## Keçidin öyrənilməsi

Keçid təsirinin qiymətləndirilməsi ilə bağlı AYİB-in yanaşmasına dair əlavə məlumatları buradan əldə edə bilərsiniz.

## Biznes imkanları

Biznes imkanları və ya satınalma məsələləri ilə bağlı sifarişçi şirkətlə əlaqə saxlayın.

AYİB ilə (satınalmadan sair mövzuda) biznes imkanları üçün aşağıdakı vasitələrlə əlaqə saxlayın:

Tel: +44 20 7338 7168
E-poçt: projectenquiries@ebrd.com

Dövlət sektoru layihələri ilə bağlı AYİB Satınalmalar səhifəsinə daxil olun:
Tel: +44 20 7338 6794
E-poçt: procurement@ebrd.com

## Ümumi müraciətlər

Xüsusi müraciətlər AYİB Müraciət blankı vasitəsilə edilə bilər.

## Ətraf Mühit və Sosial Siyasət (ƏMSS)

ƏMSS və müvafiq Fəaliyyət tələbləri (FT-lər) AYİB-in “ətraf mühitin mühafizəsi sahəsində düzgün və dayanıqlı inkişaf” strategiyasının təşviqi öhdəliyinin icra metodlarını müəyyənləşdirir. ƏMSS-yə və FT-lərə müştərilərin ictimai məlumat və məsləhət üzrə dövlət qanunlarının tətbiq olunan tələblərinə cavab vermək, eləcə də maraqlı tərəflərin, xüsusilə də müştərinin və layihənin ətraf mühit və sosial göstəricilər sahəsində narahatlıqlarını və şikayətlərini qəbul etmək və həllini sürətləndirmək üçün şikayətlərin baxılması mexanizminin müəyyən edilməsi üçün xüsusi müddəalar daxildir. AYİB əlavə olaraq layihənin ətraf mühit və sosial risklərinin və təsirlərinin xarakterinə və miqyasına uyğun olaraq müştərilərindən layihələrdə yaranan risk və təsirlər barədə müvafiq məlumatları açıqlamağı və ya maraqlı tərəflərlə hərtərəfli məsləhətləşmə aparmağı və onların düşüncələrini nəzərə alaraq onlara cavab verməyi tələb edir.

AYİB-in bu sahədə təcrübələrinə dair ətraflı məlumat ƏMSS səhifəsində verilmişdir.

## Düzgünlük və Uyğunluq

AYİB-in Uyğunluq üzrə Baş direktorunun Ofisi (UBDO) yaxşı idarəetməni təşviq edir və Bankın bütün əməliyyatlarında qabaqcıl beynəlxalq təcrübələrə uyğun olaraq ən yüksək düzgünlük standartlarının tətbiqini təmin edir. Layihələrin icrası zamanı qeyri-məqbul düzgünlük və ya reputasiya ilə bağlı risklərə yol verməmək üçün Bank bütün müştərilərinin düzgünlük sahəsində hüquqi yoxlamasını aparır. Bank hesab edir ki, layihələrin qiymətləndirilməsi və təsdiqlənməsi mərhələlərində problemlərin müəyyən və həll edilməsi Bank əməliyyatlarının düzgünlüyünün təmin olunması üçün ən effektiv üsuldur. UBDO bu qabaqlayıcı tədbirlərdə mühüm rol oynayır və eləcə də investisiya qoyuluşundan sonra layihələrin düzgünlük sahəsində risklərinə nəzarətdə kömək edir.

UBDO həmçinin AYİB-in maliyyələşdirdiyi layihələrdə saxtakarlıq, korrupsiya və qeyri-məqbul davranışla bağlı iddiaların araşdırılmasına görə məsuliyyət daşıyır. Bankın daxilində və ya xaricində saxtakarlıq və ya korrupsiya halları ilə bağlı şübhəsi olan hər bir şəxs compliance@ebrd.com e-poçt ünvanı vasitəsilə Uyğunluq üzrə Baş direktora yazılı şəkildə müraciət etməlidir. Məruzə olunan bütün məsələlər UBDO tərəfindən araşdırılacaqdır. Bütün müraciətlər, o cümlədən anonim müraciətlər nəzərdən keçiriləcəkdir. Müraciətlər Bankda istifadə olunan və ya Bankın fəaliyyət göstərdiyi ölkələrin dilində edilə bilər. Məlumatlar dürüst şəkildə təqdim edilməlidir.

## İnformasiya Əlçatanlığına dair Siyasət (İƏS)

İƏS AYİB-in informasiyanı açıqlama qaydasını və 1 yanvar 2020-ci il tarixindən etibarən qüvvəyə mindikdən sonra bankın strategiya, siyasət və əməliyyatları sahəsində maariflənməni və anlayışı artırmaq üçün maraqlı tərəflərlə məsləhətləşmə qaydalarını müəyyən edir. AYİB-in veb-saytında mövcud olan məlumatları əldə etmək üçün İnformasiya Əlçatanlığına dair Siyasət səhifəsinə daxil ola bilərsiniz.

İnformasiya əldə etməklə bağlı xüsusi müraciətlər AYİB Müraciət blankından istifadə etməklə göndərilə bilər.

## Layihənin Müstəqil Hesabatlılıq Mexanizmi (LMHM)

Ətraf mühit, sosial və ya ictimai məlumatların açıqlanması ilə bağlı narahatlıqların Müştəri və ya Bankla həll edilməsi cəhdləri uğursuz olduğu təqdirdə (məs., Müştərinin Layihə səviyyəli şikayətlərinin baxılması mexanizmi və ya Bankın rəhbərliyinə birbaşa müraciət vasitəsilə) fiziki şəxslər və təşkilatlar onları narahat edən məsələləri AYİB-in Layihənin Müstəqil Hesabatlılıq Mexanizmi (LMHM) vasitəsilə bildirə bilərlər.

LMHM zərər verdiyi ehtimal olunan (və ya zərər vermə ehtimalı olan) Layihə məsələlərini müstəqil şəkildə nəzərdən keçirir. Bu Mexanizmin məqsədi ətraf mühit, sosial və ya ictimai məlumatların açıqlanması ilə bağlı yaranan problemlərin həlli istiqamətində Layihənin maraqlı tərəfləri arasında dialoqu dəstəkləmək, Bankın özünün Ətraf Mühit və Sosial Siyasətinə və ya İnformasiya Əlçatanlığına dair Siyasətinin Layihəyə aid müddəalarına əməl edib-etmədiyini müəyyən etmək və Bankın gələcəkdə uyğunsuzluq hallarına yol verməməsi üçün aidiyyəti üzrə bu siyasətlərə riayət olunmama hallarını aradan qaldırmaqdır.

LMHM və onun səlahiyyətləri haqqında daha ətraflı məlumat əldə etmək, Yenidən baxılması üçün müraciətin qaydalarını öyrənmək üçün Layihənin Müstəqil Hesabatlılıq Mexanizminin veb-səhifəsinə daxil olmağınız və ya LMHM və müraciət etmək barədə təlimat və əlavə məlumat əldə etmək üçün ipam@ebrd.com e-poçt vasitəsilə LMHM ilə əlaqə saxlamağınız xahiş olunur.